**AYGÜN İSGƏNDƏROVA**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının doktorantı*

# KİTABXANAÇI KADR HAZIRLIĞINDA KİTABXANAÇILIQ TƏCRÜBƏSİNİN YERİ

***Xülasə:*** *Məqalədə kitabxanaçı kadr hazırlığında tədris planları, onların quruluşu və dünya təcrübəsindən irəli gələn məsələlər şərh olunmuşdur. Peşəkar kitabxanaçı-biblioqraf kadrlarının hazırlığı və onlara verilən minimum dövlət tələbləri izah olunmuşdur. Həmçinin, Rusiya və ABŞ təcrübəsinə istinad olunmuşdur.*

***Açar sözlər:*** Kitabxanaçı kadr, tədris planları, dövlət tələbləri, kitabxanaçılıq təhsili.

**Giriş:** Kitabxana insan cəmiyyəti üçün vacib olan elementlərdən hesab olunur. Bu elementin düzgün fəaliyyət göstərməsi əsasən insan faktoru ilə (kitabxanaçı) əlaqədardır. Kitabxanaçı oxucuya təkcə maraqlı mövzuda kitabı məsləhət görməməlidir. Həmçinin, o, ədəbiyyatın mütaliəsindən irəli gələn məsələləri öz oxucusu ilə müzakirə etmək bacarığında olmalıdır. Kitabxanaçılıq peşəsi ona görə maraqlı və diqqəti cəlb edəndir ki, bu sahə ilə məşğul olan mütəxəssis hər bir sorğu xidmətini həyata keçirəndə özü də müəyyən informasiya əldə etmiş olur. Bu gün oxucularla iş kitabxanaçılıq peşəsinə kommunikativlik, emosionallıq, dərketmə və dinləmə qabiliyyəti, düzgün danışıq tərzi kimi bacarıqları təlqin edir. Kitabxanaçıların fəaliyyətinin tarixi təcrübəsini araşdırarkən məlum olur ki, oxuculara xidmət etikası həm onların, həm də kitabxanaşünasların həmişə əhəmiyyət verdiyi ciddi bir məsələ olmuşdur.

**Əsas məsələ:** Qloballaşan informasiya dövründə cəmiyyət üçün ixtisaslı kadr hazırlamaq günün vacib tələblərindən biridir. Hazırda dünya təhsil təcrübəsinə əsaslanmaqla yetişdirilən kitabxanaçı kadrlar kitabxana və informasiya işinin spesifik xüsusiyyətlərini özlərində birləşdirməlidirlər. Dünyanın müxtəlif ölkələrinin ali məktəblərində hazırlanan belə kadrlar kəmiyyət və keyfiyyət etibarilə bir-birindən köklü surətdə fərqlənsələr də, onları birləşdirən bir əsas xüsusiyyət vardır. Bu da ki həmin kadrlara tədris olunan peşə ixtisasyönümlü fənn bloklarının məzmunca yaxınlığıdır. Təbii ki, bu kadrların hazırlanmasında istifadə olunan tədris planları bir-birindən fərqlənir. Lakin bütün tədris planlarının əsas məqsədi yüksəkixtisaslı peşəkar kadr hazırlamaqdır.

Təhsil və təcrübə çox zaman fərqli mənalar kəsb edir. Bu həm də kitabxanaçılıq sahəsinə şamil olunur. Hər bir kitabxana öz işində spesifik xüsusiyyətləri nəzərə alaraq fəaliyyət dairəsini bu istiqamətdə qurur. Ona görə də gənc kitabxanaçılar hər zaman yeni nəsə öyrənmək, nəyəsə nail olmaq uğrunda mübarizə aparırlar. Kitabxanaçılıq təhsilinin məqsədi yalnız kursa dair materialları mənimsəmək deyil, həm də gələcək peşəyə dair vacib keyfiyyətləri öyrənməkdir. Buraya özünəinam, rəngarənglik, yaradıcılıq, kommunikativlik, məsu-

liyyətlilik və bir sıra başqa keyfiyyətlər də daxildir. Bu şərtlərə uyğunlaşmaq üçün əvvəlcə fərdin üzərinə hansı işlərin düşdüyünü müəyyənləşdirmək, daha sonra onun özünü hansı mühitdə və iş şəraitində göstərməsini bilmək lazımdır. [2, s..24]

Kitabxanaçılıq təhsilinin tədrisində peşəkar fəaliyyət tərzi, yüksək səviyyədə ixtisaslaşma, kollektiv işlərdə önəçıxma kimi xüsusiyyətlər də öz əksini tapmalıdır. Bütün bunlar kitabxanaçılıq təcrübəsində düzgün tətbiq olunarsa, onda təhsilin keyfiyyəti daha da yüksək və effektiv olar. Beləliklə, daha effektiv kitabxanaçılıq təhsilini və təcrübəsini yaymaq üçün həmin sahə üzrə kadr yetişdirən müəssisə və təşkilatlarda təhsil alan mütəxəssislərə bu fikirləri aşılamaq lazımdır. Peşəkar əməkdaşlıqda kitabxanaçılıq təhsilinin və təcrübəsinin 2 infrastrukturu müəyyənləşdirilmişdir:

Birinci və əsas istiqamət bu sahə üzrə mütəxəssis kadrların hazırlanmasıdır. İkincisi isə fəaliyyət və istehsaldır. Burada həyata keçirilən fəaliyyət və kitabxanaçılıq işi Azərbaycan Respublikasının müvafiq sahəyə dair qanunları ilə tənzimlənir.

Peşəkar kitabxanaçı-biblioqraf kadrlarının hazırlığı və onlara verilən minimum tələblər dövlət tərəfindən hazırlanmış müvafiq standartlara əsasən həyata keçirilir. Qəbul olunmuş dövlət standartlarında kitabxanaçılıq təhsilinin bölgüsü, fəaliyyət dairəsi, prinsipləri, kitabxanaçı kadr hazırlığında qarşıya qoyulan şərtlər öz əksini tapmışdır.[4, s 128]

Kitabxanaçı-biblioqraf kadr hazırlığı bu sahəyə olan tələbatdan irəli gəlir. Bazar iqtisadiyyatının tələb-təklif münasibətlərinə əsaslansaq görərik ki, zaman keçdikcə ehtiyac olan sahələr üçün təklif olunan kadrlar hər zaman azlıq təşkil etmişdir. Çünki mədəniyyətin ayrılmaz hissəsi olan və cəmiyyətdə hər zaman informasiya funksiyasını önə çıxaran kitabxanaların sayı getdikcə artmaqdadır.

Ümumiyyətlə, kitabxanaçılıq təhsilinə dair elmlərin tədrisi iyerarxik qaydada, yəni sadədən mürəkkəbə doğru formalaşmışdır. İndi isə kitabxanaçılıq təhsilində birinci yerdə dayanan kitabxanaşünaslıq fənlərinin tədrisi metodikasına nəzər yetirək.

Məsələn: "kataloqlar". Peşəkar kadr hazırlığı üçün bu fənnin tədrisi böyük əhəmiyyət kəsb etsə də, dövlət standartında konkret belə br ixtisas yoxdur. Burada kitabxana kataloqlarının əsas xüsusiyyətləri, kataloq sistemi və onun növləri, biblioqrafik təsvir, təsnifləşdirmə, predmetləşdirmə məsələləri tədris olunur. Həmçinin, ənənəvi və müasir informasiya-axtarış sistemləri arasında olan fərqlər bu fənnin tədrisində də öz əksini tapır. "Kitabxana kataloqları" kursu kitabxanaçı kadrların ixtisaslaşmasında böyük əhəmiyyətə malikdir. Məlum olduğu kimi, kitabxanalarda ənənəvi və avtomatlaşdırılmış kataloqlar mövcuddur. Bunlar arasındakı fərqlər də bu fənnin tədrisində öyrənilir.

1998-ci ildə Rusiyada kitabxanaçı-biblioqraf kadr hazırlayan təhsil müəssisələrində "Kitabxanaçılıq psixologiyası" adlı fənnin tədrisinə başlanıldı. Kitabxanaşünaslıq elmi bir fəndən və ya bir predmetdən ibarət deyil. Buraya

bu sahənin əsas prioritet istiqamətlərini özündə birləşdirən və geniş elmi izahını vermək bacarığında olan fənlər toplusu aiddir. Kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elmləri ilə yanaşı, təcrübəsinin də xüsusi yeri vardır. Bunun üçün baza fənlərinin tədrisi mühüm əhəmiyyətə malikdir.

Məlum olduğu kimi müasir dövrdə orta və ali kitabxanaçılıq təhsili cəmiyyətdə baş verən mürəkkəb kitabxana-informasiya proseslərindən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Təsadüfi deyildir ki, dünya kitabxanaşünaslıq nəzəriyyəsi və təcrübəsi qarşılıqlı əlaqə şəklində tədris olunur. Buna görə də müasir kitabxanaçılıq təhsil sistemində heç bir nəzəri fənni təcrübədən kənarda təsəvvür etmək mümkün deyil. Bütün bunlardan aydın olur ki, kitabxanaçılıq təhsil müəssisələrində tədris prosesinin mütərəqqi təcrübi yeniliklərlə zənginləşdirilməsi üçün elmi kitabxanalar mühüm rol oynayır. İlk növbədə tədris planları və proqramlarının tərtib edilməsinə metodik mərkəz statusuna malik olan elmi kitabxanaların prosesə cəlb edilməsi zəruri hesab olunur.[6, s.61]

Ölkəmizdə kitabxanaçı kadrların hazırlanmasında Rusiya və ABŞ kitabxanaçılıq təcrübəsinə daha çox müraciət olunur.

Müasir dövrdə peşəkar kitabxanaçı informasiya axtarışını, analizini nəinki kitabxana sferasında, eləcə də bütün informasiya-kommunikasiya sahəsində həyata keçirə bilməlidir. Qəbul olunmuş yeni standartlar ixtisas proqramları və dərsliklərinin geniş səviyyədə tədrisini tələb edir. Təhsil səviyyəsinin yüksəldilməsi Rusiyanın təhsil sistemində həyata keçilən ən böyük islahatlardan biridir. Kitabxanaçılıq-informasiya təhsilinin keyfiyyətini daha da yüksəltmək üçün onun digər fənlərlə və onların ayrı-ayrı kriteriyaları ilə əlaqələrini kompleks təhlil etmək lazımdır.

Kitabxanaçılıq-informasiya təhsilinə marketinq-menecment fəaliyyətinin cəlb olunması bu peşənin sosial nüfuzunun artmasına səbəb olacaqdır. Məhz belə islahatlar kitabxanaçılıq təhsili üzrə qəbul olunmuş dövlət standartında qarşıya çıxmışdır. Amma bunlar da problemlərin tam həllini göstərmir. Aşağı səviyyədə olan əməkhaqqı gənc və bacarıqlı mütəxəssislərin yetişməsinə öz mənfi təsirini göstərir. Bu əsas faktor aradan qaldırılmazsa Rusiyada gələcək kitabxanaçı mütəxəssislərin yetişməsində azalma müşahidə olunacaqdır.

Bu gün Rusiyada öz peşəsini tərk edib digər fəaliyyət sahələrində çalışan kitabxanaçıların sayı həddən artıq çoxdur. Sözsüz ki, qəbul olunmuş yeni standart ölkədə kitabxanaçılıq təhsilinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Lakin yaddan çıxarmaq olmaz ki, qarşıda duran bu maneəni aradan qaldırmaq üçün çoxillik fədakarlıq lazımdır.

Rusiyada sonradan qəbul edilmiş üçpilləli ali təhsil sistemində (bakalavr, magistr, doktorant) bir çox Şərqi Avropa və MDB ölkələrinin kitabxanaçılıq təcrübəsindən istidadə olunmuşdur. Şərqi Avropa ölkələrində kitabxanaçılıq təhsilinə verilən tələblər də müxtəlifdir. Bu ölkələrin hər birində milli kitabxanaçılıq təhsili modeli qorunub saxlanılır. Məsələn, Polşa, Estoniya, Litva, Çexiya və Slovakiyada ali kitabxanaçılıq təhsili üçpilləli, Bolqarıstanda dördpil-

ləli (mütəxəssis, bakalavr, magistr, doktorant), Belarusiyada isə birpilləli (mütəxəssis) təhsil modeli saxlanılmaqdadır.[8, s 67]

Rusiya kitabxanaçılıq təhsili sahəsində hələ qarşıda bir sıra çətinliklər və maneələr durur. Yeni islahatlar həyata keçirmək üçün zəngin kitabxanaçılıq təhsilinə malik ölkələrin təcrübələrindən yararlanmaqla bu problemlərin aradan qaldırılmasına səy göstərilir.

Hazırda kitabxanaçılıq sahəsinin ən çox inkişaf etdiyi ölkələrdən biri də ABŞ-dır. Burada kitabxanaçılıq sahəsinin yüksək səviyyədə inkişaf etməsinə səbəb müasir tələblərə cavab verən təhsilin olmasıdır ki, bu da ölkəmizdə kitabxanaçılıq təhsilinin inkişaf etməsi üçün böyük təcrübə mənbəyidir.

ABŞ-da kitabxanaçılıq təhsili, bu sahədə kadr hazırlığı məsələlərini öyrənmək üçün Bostonda yerləşən ən əhəmiyyətli kitabxanaçılıq təhsili müəssisəsi olan Simmons Kollecinin fəaliyyətini araşdırmaq yerinə düşər. Buraya müxtəlif sahələrdən bakalavr diplomu olan mütəxəssislər qəbul olunur və onlar kitabxanaçılıq-informasiya fəaliyyəti üzrə ixtisaslar əldə edib magistr dərəcəsi ilə kolleci bitirirlər. Kollecdə tədris prosesinin xüsusiyyətləri müxtəlifdir [10, s 46].

Alabama Universiteti – Kitabxana və İnformasiya Tədqiqatları məktəbi: ABŞ-da yüksək səviyyəli kitabxanaçılıq təhsili verən qabaqcıl universitetlərdən biridir. Burada təhsil alan tələbələr kitabxana və informasiya tədqiqatları üzrə elmi dərəcə almaqla yanaşı, təhsil aldıqları müddət ərzində əlavə üç sahə üzrə də ixtisas seçimi apara bilərlər: 1) Kitabxana tədqiqatları; 2) Arxiv tədqiqatları; 3) İnformatika.

Lakin tələbələrin ümumilikdə aldıqları icbari fənlər də vardır ki, bunlara "cəmiyyətdə informasiya", "informasiya strukturları", "kitabxana-informasiya layihələri", "ictimai xidmət" aiddir. Bundan başqa, tələbələr maraqlandıqları ayrı-ayrı kitabxana tiplərinin fəaliyyətinə uyğun istiqamətlərdə dərslər götürüb ixtisaslaşa bilərlər. ABŞ-da sadəcə iki-üç tədris müəssisəsindən başqa heç bir yerdə bakalavr pilləsi üzrə kitabxanaçı hazırlanmır və kitabxanaçı-biblioqraf ixtisası ilə bağlı vəzifələrə yalnız bu sahə üzrə diplomu olan mütəxəssislər qəbul olunur. Bu da ölkədə həmin peşəyə verilən yüksək qiymətdən və peşənin nüfuzundan irəli gəlir.

**Nəticə:** Beləliklə, qeyd olunan fikirləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

–Kitabxanaçı, oxucu psixologiyasına rəhbərlik etmək qabiliyyətinə malik olmalıdır.

–Pedaqoji peşəkarlıq, çeşidlərdən düzgün istifadə, texniki avadanlıqlarla davranış bacarığı (informasiya ilə əlaqəli olan texniki avadanlıqlar), təşkilatçılıq və təbliğatçılıq qabiliyyətləri birləşməlidir.

–Kitabxanaçı ətrafda baş verən hadisələrə laqeyd qalmamalı, aqressiv və özünəqapanıq olmamalıdır.

–Kitabxana prosesində bir fikir xüsusilə təlqin olunur ki, kitabxanaçının oxucuya və ictimaiyyətə olan münasibəti bir-birini tamamlamalıdır.

–Maddi-texniki bazanın yüksək olması, fəaliyyət şəraitinin əlverişli olması, kitabxanaçı kadrların üstlərinə düşən məsuliyyəti dərindən dərk etmələri və nəhayət, bu peşənin cəmiyyət üçün yararlı olduğunu mənimsəmək kitabxanaçılıq peşəsinə verilən ən mühüm tələblərdən biri olmalıdır.

**İstifadə edilmiş ədəbiyyatın siyahısı**

**Azərbaycan dilində**
1. Xələfov A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı. Bakı: Maarif, 1987,130 s.
2. Xələfov A. Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı, 1998,124 s.
3. Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı. B.: Azərnəşr, 1986, 362 s.
4. İsmayılov X. Kitabxana menecmentinin əsasları: dərs vəsaiti. Bakı, 2005, 199 s.
5. Rzayev S. Kitabxana xidməti. Dərslik. Bakı: "Bakı Universiteti" Nəşriyyatı, 2009. – 337 s.
6. Qardaşov R. Azərbaycanda kitabxanaçılıq təhsili. Monoqrafiya "Mütərcim" Nəşriyyatı, 2018,156 s.

**Rus dilində**

7. Борисова О.О. Болонская модель на российской почве // Мир библиографии, 2012, №3, с.7-10.
8. Головко С.И. Специалист: образование, компетентность, новаторство: науч.-практ. пособие/ С.И. Головко. М.: Либерея-Бибинформ, 2005, 144с.
9. Гречкина Ж.В. Подготовка специалистов библиотечно-информационной деятельности в Ставропольском государственном университете // Библиотековедение, 2011, №2, с.122-125.
10. Гришина С.М. Непрерывное профессиональное образование в условиях ЦБС : практ. пособие / С. М. Гришина. М.: Литера, 2010, 154с.
11. Опарина О.Д. Пользователь побеждает читателя! : опыт обучения пользователей информ. грамотности в Науч. б-ке Урал. ун-та // Библ. Дело, 2005, №8, с. 2–5.

***Айгюн Исгендурова***

## *МЕСТО БИБЛИОТЕЧНОЙ ПРАКТИКИ В ОБУЧЕНИИ БИБЛИОТЕКАРЕЙ*

***РЕЗЮМЕ***

*В статье рассматриваются учебные планы по обучению библиотечных кадров, а также их структура и вытекающие из мирового опыта. Разъясняются минимальные Государственные требования к подготовке профессиональных библиотечных кадров. Также присутствует отсылка к опыту Россия и США.*

***Ключевые слова:*** библиотечный кадр; учебные планы; государственные требования; библиотечное образование.

***Aygun Isgandarov***

## *THE PLACE OF LIBRARIANSHIP PRACTICE IN LIBRARIAN TRAINING*

***SUMMARY***

*The article explains the curricula in the training of librarians, their structure and issues arising from world experience. Clarifies the minimum State requirements for the training of professional librarians. İt is also referred to the experience of Russia and the USA.*

***Key words:*** library frame; educational plans; state requirements; library education.

**Rəyçi:** t.ü.e.dok.,prof. X.İ.İsmayılov